Demokratik Təşəbbüslər İnstitutu

IDI

Institute for Democratic Initiatives

# AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİLİN VƏZİYYƏTİNƏ DAİR

# ARAŞDIRMA SƏNƏDİ



BAKI-2018

## İÇİNDƏKİLƏR:

Xülasə .......................................................................................................... 3

Giriş.............................................................................................................,,. 4

Metodologiya.................................................................................................. 5

Vəziyyətin dəyərləndirilməsi:

*Problemin təsviri*.......................................................................................... 5

*Problemin təhlili*........................................................................................... 9

Nəticə.......................................................................................................... 15

Tövsiyələr..................................................................................................... 16

Mənbələr....................................................................................................... 18

## XÜLASƏ

Azərbaycanın səlahiyyətli dövlət qurumlarının hesabatlarında müavinət alan sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqların sayı fərqli göstərilir. Belə ki, Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin əvvəlində belə uşaqların sayı 71934, Təhsil Nazirliyinin məlumatına görə bu say 65482 nəfərdir. 2005-2009-cu illərdə 268 nəfər inklüziv təhsilə cəlb edildiyi halda, 2015-2017-ci illər ərzində yalnız 40 nəfər şagird pilot məktəblərdə eksperimental siniflərdə inklüziv təhsilə cəlb edilib.

Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər) çərçivəsində beynəlxalq və yerli qeyri-hökümət təşkilatların dəstəyi ilə 3 pilot layihə həyata keçirilib ki, bu çərçivədə 2004-2005-ci tədris ilində ölkə üzrə 14 ümumtəhsil, 13 məktəbəqədər təhsil müəssisəsində inklüziv təhsil tətbiq olunub.

Rəqəmlərdən də görünür ki, sağlamlıq imkanları məhdud uşaqların 77%-i nəinki inklüziv təhsilə, ümumiyətlə təhsilə cəlb olunmayıb. Bu həmin uşaqların təhsil hüququnun birbaşa pozulmasıdır və buna cavabdeh olan müvafiq qurumların problemin səbəbləri və həlli yolları barədə hesabatlılığı çox önəmlidir.

Ölkəmizdə inklüziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəbləri sağlamlıq imkanları məhdud uşaqların sayına nisbətdə əhəmiyyətli dərəcədə azlıq təşkil edir. Xüsusilə, regionlarda sağlamlıq imkanları məhdud uşaqların valideynləri uşaqlarına təhsil veriləcək müəssisələrə çatımlılıqla bağlı ciddi problemlər yaşayır. Bu məsələdən qaynaqlanan problemlərə görə valideynlər evdə təhsilə üstünlük verir. Övladları evdə təhsil alan valideynlərlə aparılmış müsahibələr müəllimlərin evdə təhsilə əsasən məsuliyyətsiz yanaşdığını göstərir.

Bu sahədə digər problemlər inklüziv təhsil alan uşaqlar üçün xüsusi proqram, dərslik, qiymətləndirmə metodlarının olmaması, dərsdənkənar fəaliyyət növlərini əhatə edən dövlət hesablı mərkəzlərin sayının az olması, sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazasının, inklüziv təhsilin yuxarı pillələrini əhatə edən layihələrin, proqramların olmamasıdır.

İnklüziv təhsil uşaqların sosial bilik və bacarıqlara yiyələnməsi və gələcəkdə özünü cəmiyyətdə reallaşdıra bilməsi üçün önəmlidir. Təsadüfi deyil ki, dünya ölkələrində inklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların sayı digər təhsil formalarına cəlb olunanların sayını dəfələrlə üstələyir.

İnklüziv təhsilin əsas prinsipləri:
- şagirdin ailəsi ilə birlikdə qalması
- valideynləri ilə sıx əməkdaşlıq
- fərdi inkişaf-təhsil planının olmasıdır.

İnklüziv təhsilin əsas məqsədi hamı ilə birlikdə, amma ehtiyaclara uyğunlaşdırılmış fərdi inkişaf və təhsil proqramını tətbiq etməklə bu uşaqları sosial həyata inteqrasiya etdirməkdir. Bütün bunlar uşağın inkişafı, özünütəsdiqi və gələcəyi üçün əhəmiyyətli məsələlər hesab olunduğundan Dövlət Proqram və layihə icraçıları bu sahədə ciddi dəyişiklik etmək niyyətlərində qətiyyətli olmalıdırlar.

Araşdırmanın məqsədi Azərbaycanda inklüziv təhsilin ümumi vəziyyətini və ona münasibətin öyrənilməsi, problemlərin müəyyən edilib, uyğun tövsiyələrin təklif edilməsindən ibarətdir.

## 1. GİRİŞ

İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun həyata keçirilməsinə, eyni zamanda cəmiyyətə inteqrasiyasına şərait yaradan və dünyada geniş yayılmış təhsil təcrübəsidir. Sağlamlıq imkanları məhdud uşaqlar hər gün cəmiyyətdə bizimlə birgə iştirak etmək üçün saysız problemlərlə rastlaşırlar. Xüsusilə onlar üçün cəmiyyətin müxtəlif sahələrində potensial effektiv iştirakının təminatı olan təhsil hüququ ya ümumiyyətlə həyata keçirilmir, yaxud keyfiyyəti şübhə doğuran tərzdə həyata keçirilir. Ölkəmizdə inklüziv təhsillə bağlı 2005-ci ildən etibarən dövlət və qeyri-dövlət təşkilatlarının dəstəyi ilə müxtəlif layihələr həyata keçirilsə də, çox uzun yol qət edildiyini söyləmək olmaz. Əsasən belə problemlər iqtisadi səbəblərdən inkişaf etməkdə olan ölkələrdə yaranır. Belə ki, uşağın təhsilə çatımlılığı qanunun tələblərinə uyğun səviyyədə təmin edilmir.

*Təhsil Qanununun 5-ci maddəsi* sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.[1]

BMT tərəfindən 2006-cı ildə qəbul edilmiş *"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın* 24-cü maddəsində (uşaqların təhsili ilə bağlı) sağlamlıq imkanları məhdud olan şəxslərin bərabər imkanlar şəraitində təhsil almaq hüququ, bütün səviyyələrdə birgə təhsil sistemi və həyat boyu təhsil sisteminə çıxış imkanının dövlət tərəfindən dəstəklənməsi təsbit edilir. Sağlamlıq imkanları məhdud insanlar cəmiyyətin tamhüquqlu üzvləridir və hər kəsin sahib olduğu hüquq və azadlıqlara malikdirlər.

2011-ci ildə 250 nəfər sağlamlıq imkanları məhdud uşaq arasında keçirilmiş sorğuda respondentlər (0-9 yaşlı uşaqların valideynlərinin 81%-i, 10-15 yaşlı uşaqların valideynlərinin 83%-i) sağlamlıqla bağlı problemlərinin anadan olandan yarandığını bildirib.[2] Göstərilən məlumat uşaqların problemlərinin qarşısının alınması üçün erkən müdaxilənin vacibliyindən xəbər verir. Dünya təcrübəsində əlilliyin qarşısının alınması üçün erkən müdaxilə proqramları mövcuddur.[3]

Azərbaycanda belə proqramları UAFA Bakı, Xaçmaz, Gəncə, Biləsuvar, Cəlilabadda yerləşən ictimai əsaslı reabilitasiya mərkəzlərində eskperimental bağçalar təşkil edərək məktəbəqədər təhsil proqramlarını tədris edirlər. Həmçinin "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair" Milli Fəaliyyət Proqramında (2014-2018-ci illər)[4] əlilliyin erkən aşkarlanması və erkən müdaxilənin təmin olunması vasitəsilə qarşısının alınması və dərəcəsinin azaldılması əsas məqsədlər arasında yer alsa da, bununla bağlı görülmüş işlər barədə məlumatlara rast gəlinmədi.

Məsələ ondadır ki, Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların əsas ehtiyaclarının ödənilməsi və cəmiyyətə inteqrasiyası əsasən valideynlərin üzərinə düşür. Halbuki bu sahədə qanunvericiliyə görə əsas işi dövlət görməlidir. Türkiyə Təhsil Nazirliyi və onun yerli şöbələri 2006-cı ildə qəbul edilmiş Xüsusi Təhsil Xidmətlərinə dair qanuna əsasən, doğulduğu andan

[1] http://edu.gov.az/az/page/72/302
[2] http://www.undp.org/content/dam/azerbaijan/docs/sustain_development/AZ_Disability_Report_Eng.pdf
[3] https://www.ncbi.nlm.nih.gov/pubmed/1713898
[4] http://www.mlspp.gov.az/az/pages/280

əlillik dərəcəsi olduğu müəyyən edildiyi təqdirdə, uşağı qarşıdakı 6 il ərzində izləyir, uşağı ona uyğun təhsil proqramı ilə təmin olunması üçün çalışır. Burada da əsas məqsəd şagirdi inklüziv təhsil ilə təmin etməkdir ki, bunun üçün də mümkün olduğu qədər bu qəbildən olan şagirdlərin sağlamlıq problemi olmayan həmyaşıdlarıyla təhsil alması üçün işlər görülür. Qeyd edək ki, Türkiyədə sağlamlıq imkanları məhdud uşaqların əsas hissəsi inklüziv təhsilə cəlb olunub.[5]

İnklüziv təhsilin əsas prinsiplərini şagirdin ailəsi ilə birlikdə qalması, valideynləri ilə sıx əməkdaşlıq və fərdi inkişaf-təhsil planı təşkil edir. Bütün bunlar uşağın inkişafı, özünütəsdiqi və gələcəyi üçün əhəmiyyətli məsələlər hesab olunduğundan Dövlət Proqram və layihə icraçıları bu sahədə ciddi dəyişiklik etmək niyyətlərində qətiyyətli olmalıdırlar.

## 2. METODOLOGIYA

Mövcud vəziyyətin dəyərləndirilməsi üçün sağlamlıq imkanları məhdud insanlarla bağlı yerli və beynəlxalq qanunvericilik nəzərdən keçirilmiş, yerli və beynəlxalq təşkilatların əlil insanların ümumi vəziyyətini təsvir edən hesabatları, hökumətin əlilliyi olan uşaqların hüquqlarının müdafiəsi ilə bağlı BMT-nin müvafiq Komitəsinə olan hesabatı, Komitənin hökumətə olan tövsiyələri, sağlamlıq imkanları məhdud uşaqlarla bağlı dövlətin proqram və layihələri araşdırılmış, mediada çıxan məlumatlar öyrənilmiş, övladları evdə və inklüziv təhsil alan şagirdlərin valideynləri ilə sorğu və intervülər keçirilmişdir.Övladları inklüziv təhsil alan valideynlərlə sorğuların keçirlməsinə məktəb müdiriyyəti tərəfindən icazə verilməmiş, icazənin alınması üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdirinə idarənin saytından elektron məktub göndərilsə də, cavab alınmamışdır. Sosial şəbəkələrdə tədqiqata dair paylaşılan məlumatlar sayəsində inklüziv məktəblərdə və evdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə sorğu keçirməyə nail olunub. Əldə edilən məlumatlar analiz-sintez və müqayisəli təhlil metodları ilə qiymətləndirilmiş və nəticəyə gəlinməyə çalışılmışdır.
Hesabatda inklüziv təhsil sahəsində vəziyyətin dəyərləndirilməsi təhsilin mövcudluq, mümkünlük, məqbulluq və uyğunlaşma kateqoriyalarına uyğun aparılıb.

## 3. VƏZİYYƏTİN DƏYƏRLƏNDİRİLMƏSİ

### *3.1. Problemin təsviri*

*Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Haqları Bəyənnaməsində* hər insanın təhsil haqqına sahib olduğu hökmü yer alır. 1990-cı ildə keçirilən "Hamı üçün təhsil: təlimə dair əsas tələbatların ödənilməsi" adlı dünya konfransının nəticəsində bir çox ölkələrdə uşaqların təhsil almaq imkanından məhrum olması məsələsi gündəliyə daxil edildi. Bu təşəbbüs təhsil almaqda aşkar surətdə çətinlik çəkdiklərinə görə təhsil almaq imkanından tamamilə məhrum olan və ya təhsil sistemləri daxilində diqqətdən kənarda qalan uşaqlara diqqət yetirilməsinə kömək etdi. İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. İnklüziv təhsillə bağlı qəbul edilən ilk rəsmi və bir çox ölkənin imzaladığı sənəd Salamanka Bəyənnaməsidir. Həmin bəyənnamə 92 Dövlətin iştirakı ilə 1994-cü ildə qəbul olunub.

[5] http://cesd.az/new/wp-content/uploads/2016/05/CESD_EU_Policy_Paper_Education.pdf

*Konstitusiyanın 25-ci maddəsinə* görə, sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

*Konstitusiyanın 42-ci maddəsində* isə qeyd edilir ki, Azərbaycanda təhsil siyasəti dövlətin nəzarəti altında həyata keçirilir. İnklüziv təhsil həm sağlam, həm də sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə sağlam adaptasiyası üçün mühüm əhəmiyyət kəsb edir.

***Ölkədə həyata keçirilən proqram və layihələr***

Sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun təminatı məqsədilə 2001-ci ildə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (Xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının qanun"u qəbul edilmiş, 2009-cu ildə Azərbaycan Respublikası Təhsil Qanunu qəbul edilib. Lakin bu qanunlarda inklüziv təhsillə bağlı hər hansl müddəa yer almayıb.

İnklüziv təhsillə bağlı ilk layihə 2004-2005-ci tədris ilindən başlayaraq Dünyaya Baxış təşkilatı "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: mövqelər, təcrübələr və siyasət" pilot layihəsini həyata keçirib. Layihə çərçivəsində inklüziv təhsilə cəlb olunmuş təhsil işçiləri üçün müxtəlif treninq və seminarlar təşkil edilmiş və dünyada mövcud olan yeni təhsil texnologiyaları Azərbaycanda sınaqdan keçirilmişdir. Layihə çərçivəsində 164 xüsusi qayğıya ehtiyacı olan uşaq inklüziv təhsilə cəlb edilmişdir. Pilot layihə çərçivəsində 2004-2009 illər ərzində 500 nəfər ibtidai sinif müəllimi, məktəbəqədər təhsil müəssisələrininin tərbiyəçiləri, 20 nəfər məktəb direktoru və digər heyət üçün treninq, mini-seminarlar və digər tədbirlər keçirilmişdir. Pilot layihənin icrası zamanı, həmçinin, valideynlər, inzibatçılar, universitet müəllimləri, sosial sahədə işləyən mütəxəssislər, psixoloqlar, həkimlər, defektoloq və loqopedlər üçün təlimlər də təşkil edilib. Layihənin məqsədlərinə uyğun olaraq müəllimlər, valideynlər, uşaqlar, xüsusi təhsil mütəxəssisləri, ali təhsil müəssisələrinin işçiləri, ictimaiyyət və layihəni icra edən mütəxəssislər üçün metodik vəsaitlər hazırlanmış, bir sıra xarici ədəbiyyatlar tərcümə olunaraq çap etdirilib.[6]
Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)[7] çərçivəsində beynəlxalq və yerli qeyri-hökümət təşkilatların dəstəyi ilə 3 pilot layihə həyata keçirilib. İcra olunmuş layihələr çərçivəsində 2004-2005-ci tədris ilində ölkə üzrə 14 ümumtəhsil məktəbində, 13 məktəbəqədər təhsil müəssisəsində inklüziv təhsil tətbiq edilmişdir. Proqramın icra dövründə ümumilikdə 268 sağlamlıq imkanı məhdud uşaq inklüziv təhsilə cəlb olunub.[8]

*Uşaq hüquqları haqqında 2012-ci il tarixli Qanunun* 35-ci maddəsində sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququna bir daha təminat verilir.[9]

Ölkə Prezidentinin *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında 2013-cü il tarixli Sərəncamının*[10] 1.2.4-cü maddəsində "xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması" nəzərdə tutulub. Yenə həmin Sərəncamda təlim metodologiyasının yaradılması, sosial adaptasiyası üçün imkanların təmin

[6] http://www.anl.az/down/meqale/525/2010/fevral/106927.htm
[7] http://www.e-qanun.az/framework/7421
[8] Azərbaycan Respublikası Təhsil Nazirliyinə Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İNKİŞAF PROQRAMI (2005-2009-cu illər) göndərilmiş rəsmi sorğuya cavabda göstərilmiş məlumat https://www.dropbox.com/sh/kytjs0975diqqpm/AAA5cytVwkjwVRUbuze7yFZTa?dl=0
[9] http://www.e-qanun.az/framework/3292
[10] http://www.president.az/articles/9779

edilməsi üçün optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi, məktəbəqədər və ümumi təhsil müəssisələri təhsilverənlərinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi və. s kimi məsələlər əks olunub.

2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə UNİCEF-in birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsillə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilib.
Təhsil Nazirliyinin 2015-ci il 18 Mart 311 nömrəli əmrinə əsasən "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanıb. Layihədə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, xüsusi təhsil sahəsində yeni metodikalarnın tətbiqi və ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud uşaqlar üçün yeni xidmətlərin yaradılması nəzərdə tutulub. Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunması məqsədilə Azərbaycanda ibtidai təhsil səviyyəsində inklüziv təhsil modelinin hazırlanması işlərinə başlanıb, fəaliyyət planı və yol xəritəsi tərtib edilib.

Bakı şəhəri üzrə 2015-2016-cı tədris ilində iki eksperimental məktəb (220 və 138 nömrəli), 2016-2017-ci tədris ilindən isə iki məktəb (252 və 202 nömrəli) seçilib. "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsi çərçivəsində Bakı şəhəri üzrə 2015-2017-ci illər ərzində 40 nəfər sağlamlıq imkanları məhdud uşaq inklüziv təhsil cəlb olunub.

İlk seçilmiş iki məktəbin ibtidai sinif üzrə müəllimlərinə və rəhbər işçilərinə 2015-ci ilin avqust və sentyabr aylarında Almaniyanın Oldenburq Universitetinin professor heyəti tərəfindən iki həftəlik təlim keçirilib. Onlar bir həftə Almaniyada təcrübə səfərində olmuşlar. 2016-cı ildən pilot məktəblərin pedaqoji heyətinin xüsusi təhsil sahəsində bilik və bacarıqlarının artırılması Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən davam etdirilib. Əlilliyi olan uşaqların fərdi təhsil planlarının hazırlanması üçün beynəlxalq səviyyədə tətbiq olunan yeni qiymətləndirmə alətləri (metodikaları) alındı və tətbiqinə başlanıb. Pilot seçilmiş müəssisələrdə loqopedik xidmət yaradılıb. Bununla yanaşı, məktəblərin infrastrukturunda müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təmir işləri aparılıb.[11]

*Məktəbəqədər təhsil haqqında Qanunda* (2014)[12] inklüziv təhsilə yer verilib. Həmin Qanunun 3-cü maddəsi məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərini izah edir və 3.0.1-cü maddəsi "məktəbəqədər təhsil sahəsində bərabər imkanların yaradılmasını" nəzərdə tutur ki, bu, Salamanka bəyənnaməsindəki tövsiyələrlə üst-üstə düşür. Qanunun 3.0.6-cı maddəsində isə konkret şəkildə "sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilinin təşkili" prinsip kimi təsbit olunub.

2017-ci ildə *"2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"* qəbul olunub.

BMT-nin Baş Məclisi tərəfindən 2006-cı il 13 dekabr tarixində qəbul edilmiş *"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya*[13] və bu sənədin Fakültativ Protokolu [14] 2008-ci il 3 may tarixində qüvvəyə minib.
Hər iki sənəd müvafiq bəyanatla 2 oktyabr 2008-ci il tarixli Qanunla ratifikasiya edilib və 28 yanvar 2009-cu ildən qüvvəyə minib. Azərbaycan hökuməti sözügedən Konvensiya üzrə ilk hesabatını Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitənin 2014-cü 1-2 aprel tarixlərində

[11] http://muallim.edu.az/content/?category=arxiv&issue=12-2017&content_id=30
[12] https://azertag.az/xeber/Mektebeqeder_tehsil_haqqinda_Azerbaycan_Respublikasinin_Qanunu-1071133
[13] http://www.mlspp.gov.az/az/pages/263
[14] http://www.udpo.az/read.php?lang=1&content=1016

keçirilmiş 125-ci və 126-cı iclaslarında təqdim etmiş, növbəti hesabat isə 28 fevral 2019-cu il tarixindən gec olmayaraq təqdim edilməlidir.

Üzv ölkələr əlilliyi olan uşaqlar üçün təhsilin bütün pillələri üzrə təhsil imkanı, məktəbəqədər və digər pillələrdə əlil oğlan və qızların sayı, dərs vəsaitləri, əlillərin təhsili üçün müvafiq məkan yaradılmasına yönəlmiş hüquqi və digər tədbirlər, əl işarələri, Breyl, yüksəldici və alternativ kommunikasiya, hərəkət və digər sahələrdə xüsusi bilik-təlim xidmətlərinin mövcudluğu, eşitmə qabiliyyəti olmayanlar üçün dilçilik istiqamətinin təşviq edilməsi məqsədilə həyata keçirilən tədbirlər, təhsil işçilərinin müvafiq təlimlərə cəlb olunmasının təminatı vəziyyəti, ixtisas üzrə əlil tələbələrin sayı və nisbəti, həyatboyu təhsilə çıxış imkanının təmin edilməsi üçün görülən işlər, əlilliyi olan şəxslərin və onların təhsil ehtiyaclarının erkən müəyyən edilməsi istiqamətində üzv ölkə tərəfindən həyata keçirilən tədbirlər üzrə məlumat təqdim etməlidirlər.[15]

Azərbaycan hökuməti 2014-cü il hesabatında Konvensiyanın Təhsil hüququnu (24-cü maddə) əhatə edən qanunvericilik və onun həyata keçirilməsi, Dövlət proqramlarının icrası haqqında məlumatları təqdim edib. [16]

***Ölkənin beynəlxalq təşkilatlar qarşısında hesabatları***

BMT-nin müvafiq Komitəsi tərəfindən ölkəmizin sözügedən Konvensiyaya dair dinlənilmiş ilk hesabatı ilə əlaqədar 2014-cü il 10 apreldə hökumətə 57 bənddən ibarət son tövsiyələr göndərilib. Təhsil hüququ ilə bağlı tövsiyələrdə əlilliyi olan uşaqların xüsusi internat və digər ixtisaslaşmış məktəblərdə yerləşdirilməsinin davam etməsindən narahatlıq ifadə olunub; inklüziv təhsil verən məktəblərdə və digər təhsil institutlarında yardımçı texnologiyanın və dərs otaqlarında dəstəyin, əlverişli və uyğunlaşdırılmış tədris materiallarının və proqramların, o cümlədən münasib məktəb mühitinin təmin edilməsi ilə bağlı səylərin artırılması tövsiyə edilib; inklüziv təhsillə bağlı Dövlət Proqramı üçün kifayət qədər maliyyə və insan ehtiyatlarının ayrılmasının, əlilliyi olan müəllimlər də daxil olmaqla digər müəllimlərin də Breyl və işarə dilindən istifadə etməklə keyfiyyətli təliminin, eşitmə qabiliyyəti olmayan və zəif eşidən qız və oğlanlar da daxil olmaqla bütün kateqoriyalardan əlilliyi olan uşaqların təhsilinin artırılması məqsədilə səylərin artırılmasının, mövcud inklüziv təhsil proqramının effektivliyi və iştirakçı dövlətdə müyəssərlik standartlarına uyğunluq səviyyəsi ilə bağlı tədqiqat aparılmasının və tədris ili, cins və əlillik, eləcə də rayonlar üzrə əlilliyi olan şagirdlərin tədrisi ilə məşğul olan inklüziv məktəblərin sayı barədə məlumatın dövlətin növbəti dövri hesabatına daxil edilməsinin vacibliyi vurğulanıb.

Komitə Azərbaycana:
- məlumat bazasının yaradılmasının sürətləndirilməsini,
- cins, yaş, əlillik, həmçinin regionlar üzrə ayrılmış məlumatın toplanmasını, təhlilinin və yayılmasının sistemləşdirməsini,
- əlilliyə olan tibbi yanaşmanın insan haqqlarına söykənən yanaşma ilə əvəz edildiyini nəzərə alaraq, qanunvericiliyə edilən dəyişikliklərin əsaslandırılması və müvafiq sahədə siyasətin hazırlanması və institusional təkmilləşdirmənin təmin edilməsi məqsədilə, habelə Konvensiyanın müxtəlif müddəalarının tətbiqi istiqamətində əldə olunmuş tərəqqi üzrə monitorinq və hesabatın aparılması üçün iştirakçı dövlətə gender və yaşa görə indikatorlar hazırlanmasını tövsiyə edib. [17]

[15] http://www.ohchr.org/EN/HRBodies/CRPD/Pages/ConventionRightsPersonsWithDisabilities.aspx
[16] http://www.mlspp.gov.az/az/pages/18/50
[17] https://www.dropbox.com/sh/kytjs0975diqqpm/AAA5cytVwkjwVRUbuze7yFZTa?dl=0

### 3.2. Problemin təhlili

Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci ilin əvvəlində müavinət alan sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqların sayı 71934 nəfərdir.
2016-2017-ci tədris ilinin əvvəlində xüsusi məktəblərdə və internat məktəblərində, eləcə də sağlamlıq imkanları məhdud olan uşaqlar üçün təşkil edilmiş siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların sayı 6377-dir. Həmin məlumata əsasən onlardan:
- 3237-si xüsusi məktəbdə,
- 2612-si xüsusi internat məktəblərində,
- 528-i ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud olan uşaqlar üçün siniflərdə təhsil alıb. [18]

Təhsil Nazirliyinin məlumatında[19] isə ölkə ərazisində sağlamlıq imkanları məhdud 65482 uşaq olduğu göstərilir. Həmin məlumata əsasən onlardan:
- 9355-i evdə,
- 2558-i uşaq xüsusi məktəblərində,
- 2725-i isə xüsusi internat məktəblərində təhsilə cəlb olunub.

Hər iki məlumatda uşaqların sayı ilə bağlı yaranmış fərq hələ də ölkə üzrə sağlamlıq imkanları məhdud uşaqların vahid məlumat bazasının olmamasının bariz göstəricisidir.
2005-2009-cu illərdə 268 nəfər inklüziv təhsilə cəlb edildiyi halda, 2015-2017-ci illər ərzində yalnız 40 nəfər şagird pilot məktəblərdə eksperimental siniflərdə inklüziv təhsilə cəlb edilib. Ümumiyyətlə, Dövlət Proqramı çərçivəsində beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilmiş layihələr Bakı şəhərində 220, 138, 202 və 252 nömrəli məktəblərdə reallaşdırılıb. Bundan başqa Sumqayıtda 4 və 11 nömrəli məktəblərdə, Yevlax və Mingəçevir şəhərində inklüziv təhsil tətbiq edilirdi.
Rəqəmlərdən də görünür ki, sağlamlıq imkanları məhdud uşaqların əsas hissəsi nəinki inklüziv təhsilə, ümumiyyətlə təhsilə cəlb olunmayıb. Bu həmin uşaqların təhsil hüququnun birbaşa pozulmasıdır.

Ölkəmizdə inklüziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəbləri sağlamlıq imkanları məhdud uşaqların sayına nisbətdə əhəmiyyətli dərəcədə azlıq təşkil edir. Xüsusilə regionlarda sağlamlıq imkanları məhdud uşaqların valideynləri uşaqlarına təhsil veriləcək müəssisələrə çatımlılıqla bağlı ciddi problemlər yaşayır. Bu məsələdən qaynaqlanan problemlərə görə valideynlər evdə təhsilə üstünlük verir. Övladları evdə təhsil alan valideynlərlə aparılmış müsahibələr müəllimlərin evdə təhsilə əsasən məsuliyyətsiz yanaşdığını göstərir.

*Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramına (2005-2009-cu illər)* əsasən, ölkədə sağlamlıq imkanları məhdud uşaqlar üçün qənaətbəxş şərait yaradılmalı olduğu halda, Proqramın icra müddətində qarşıya qoyulmuş məqsədlərə demək olar ki nail olunmamışdır. "Proqramda xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi məqsədi ilə hər bir müəssisə üzrə tədbirlər də müəyyənləşdirilib.

[18] Azərbaycan Respublikası Statistika Komitəsinə göndərilmiş sorğuya cavab https://www.dropbox.com/sh/kytjs0975diqqpm/AAA5cytVwkjwVRUbuze7yFZTa?dl=0
[19] https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inklüziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083

Bu tədbirlər əlavə korpusların, sinif və yardımçı otaqların, idman zallarının inşası, reabilitasiya kabinetlərinin yaradılması, müalicəvi idman avadanlıqlarının, trenajorların, kompüter dəstlərinin, texniki təlim vasitələrinin, eşitmə aparatlarının, əlil arabalarının, nəqliyyat vasitələrinin alınması və sair kimi məsələləri əhatə edir.[20]

*Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramının (2005-2009-cu illər)* məqsədləri aşağıdakılardır:

- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnun yerinə yetirilməsi, belə kateqoriyadan olan uşaqların hamısı üçün bərabər təhsilalma şəraitinin yaradılması;
- inteqrasiyalı (inklüziv) təlimə keçidin reallaşdırılması;
- təhsil müəssisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması;
- dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi;
- müvafiq klassifikasiyaya uyğun olaraq bütün kateqoriyadan olan xüsusi qayğıya ehtiyacı olan uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi;
- xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması.

14 dekabr 2017-ci ildə qəbul olunmuş *2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramında* da demək olar ki, eyni məqsədlər yer alıb. Həmin məqsədlər aşağıdakılardır:[21]

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi,
- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi,
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması,
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması,
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.[22]

Təkrarlanan məqsədlərdən də göründüyü kimi qəbul edilən Dövlət Proqramlarının icrası faydalı şəkildə həyata keçirilmir. Məqsədlərə nail olunmasına dair monitorinq aparılmır və ən əsası ictimaiyyətə Proqramın nəticələri ilə bağlı hesabat verilmir.

2005-2009-cu il üçün qəbul edilən Dövlət Proqramında qeyd edilir ki, “xüsusi təhsil müəssisələrində təlim-tərbiyə ilə əhatə olunmuş uşaqların sayı (5535 nəfər) heç də ölkə üzrə real vəziyyəti əks etdirmir. Aparılmış təhlil göstərir ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı 20 min nəfərə yaxındır və yalnız onların 27,6 faizi təhsil müəssisələrinə cəlb olunmuşdur.[23] Həmin uşaqların qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi bu Proqramın əsas məqsədlərindən biri kimi müstəsna əhəmiyyət kəsb edir. 2018-2014-cü il üçün qəbul edilən proqramda isə, ölkədə 65482 nəfər sağlamlığı məhdud uşaq olduğu bildirilmiş, onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində təhsilə cəlb

[20] http://www.e-qanun.az/framework/7421
[21] https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inklüzivinklüziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083
[22] https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inklüzivinklüziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083
[23] http://www.e-qanun.az/framework/7421

olunmuşdurlar. Sadə bir hesablama ilə isə, bəlli olur ki, hazırda ölkəmizdə sağlamlığı məhdud uşaqların 22.3%-i təhsilə cəlb olunurlar. Bu da o deməkdir ki, aradan keçən 13 ilin nəticəsində sağlamlığı məhdud uşaqların təhsilə cəlb olunması nəinki artmış, əksinə aşağı düşmüşdür. 2005-2009-cu il inkşaf Proqramında "gözlənilən nəticələr" qismində təhsil müəssisələrində müasir monitorinq və qiymətləndirmə mexanizmləri tətbiqi, xüsusi təhsil müəssisələri üçün yeni tədris planlan və proqramları, dərsliklər və dərs vəsaitlərinin hazırlanması kimi məsələlər ortaya qoyulsa da, həmin məqsədlərin 2018-2024-cü il inkşaf proqramında yer alması bu məsələ ilə bağlı görülən işlərin azlığına diqqət çəkir.

*2018-2014-cü il Proqramının* 4.0.4-cü bəndinə qeyd edilir ki, "inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır". Lakin həmin baza artıq 2005-2009-cu il proqramında əsas məqsədlərdən biri idi və reallaşdırılmalı idi.

İnkluziv təhsillə bağlı xüsusi bir qanunun olmaması, onun elementlərinin müxtəlif qanunlarda, sərəncamlarda öz əksini tapması, inklüziv təhsillə bağlı dövlətin vahid staregiyasının olmamasına dəlalət edir.

İnkluziv təhsillə bağlı icra mexanizminin yetəri qədər işlədiyini söyləmək mümkün deyil. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. İlk olaraq inklüziv təhsillə bağlı icraedicilərin yetərli qədər məlumatlı olmaması, yaxud İnklüziv təhsilin mahiyyətini zəif qavraması, dövlətin effektiv icra mexanizmi yarada bilməməsi, yaxud yaratmaqda maraqlı görünməməsi, icra mexanizmi yaradılarkən həmin mexanizmdə vətəndaş cəmiyyətinin rolunun zəifliyi məsələləri hələdə problem olaraq qalıb.

İnkluziv təhsillə bağlı qanunverciliyin hələ də qəbul edilməməsi sözsüz ki, icra mexanizminə təsirsiz ötüşmür. Çünki icraedicilərin əlində yetərli qanunlardan doğan səlahiyyət yoxdur. Əslində, öncə qanunvericilik olmalı, daha sonra Prezident sərəncamla inkşaf proqramını qəbul etməli və qəbul edilən inkşaf proqramının əsasını həmin qanun təşkil etməlidir. Qanun olmadan qəbul edilən İnkşaf Proqramları bir növ imitasiya xarakterini alır.

Avropa ölkələrində inklüziv təhsilə cəlb edilən uşaqlar sağlamlığı məhdud uşaqların 60%-dən çoxunu təşkil etdiyi halda,[24] 2005-2009-cu ilin İnkşaf Proqramının nəticəsində cəmi 268 uşaq inklüziv təhsilə cəlb edilib. Nəzərə alsaq ki, dövlət orqanları tərəfindən həmin dövrdə 20 minə qədər sağlamlıq imkanları məhdud uşaq olduğu deyilirdi. Onlardan sadəcə 268 nəfərinin inklüziv təhsilə cəlb olunması ciddi problemdir. İkinci bir tərəfdən praktikadan görünən odur ki, əslində inklüziv təhsilə cəlb olunmalı olan uşaqlar "Psixoloji-tibbi-pedaqoji" komissiyaların rəyləri əsasında "evdə təhsilə" cəlb olunurlar.

Azərbaycanda 2004-cü ildən etibarən inklüziv təhsil haqqında müəyyən işlər görülsə də, 2004-2017-ci illərdə sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması haqqında mediada çıxan xəbərlərin azlığı özlüyündə bu sahəyə dair diqqətin və məlumatlılığın zəifliyindən xəbər verir. Həyata keçirilən layihələrin əsas məqsədləri sağlamlıq imkanları məhdud uşaqların hamısı üçün bərabər təhsilalma şəraitinin yaradılması olsa da, təhsildən kənarda qalan uşaqların sayı təhsilə cəlb olunanların sayını əhəmiyyətli dərəcədə üstələyir. Təhsil Nazirliyinin məlumatına əsasən 65482 nəfər sağlamlıq imkanları məhdud uşaq var, onlardan 14886 nəfəri

[24] http://tohumotizm.org.tr/sites/default/files/kcfinder/files/4.pdf

təhsilə cəlb olunub. Bu, yerdə qalan 77% sağlamlıq imkanı məhdud uşağın təhsil hüququnun pozulması deməkdir.

Sağlamlıq imkanları məhdud uşaqlar haqqında bazanın və ya aparılan hesabatların dəqiq olmaması səbəbilə müxtəlif dövlət orqanlarından sağlamlığı məhdud uşaqlarla bağlı fərqli rəqəmlər əldə edilir. Məsələnin araşdırılması üçün göndərilən sorğulara ya cavab verilmir və ya uyğunsuz cavablar verilir. Dövlət Statistika Komitəsi istisna olmaqla digər orqanlardan sorğulara cavab almaq asan olmadı. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərdiyimiz sorğuya təmamilə aidiyyəti olmayan cavab verildi, Səhiyyə Nazirliyindən ümumiyyətlə hər hansı reaksiya alınmadı. Sağlamlıq imkanları məhdud uşaqlar üçün Dövlət Proqramında inklüziv təhsilin tətbiq edildiyi qeyd edilən bağçalarla bağlı məlumat almaq üçün Bakı Şəhəri İcra Hakimiyyətinə sorğu göndərib, şəxsən görüşülüb sorğunun məqsədləri izah edilsə də, cavab almaq mümkün olmadı.

- Mövcudluq kateqoriyası çərçivəsində dəyərləndirsək, inklüziv təhsil təklif edən məktəblərin sayı sağlamlığı məhdud uşaqların sayı ilə müqayisədə çox azdır;

- Əlilliyi olan şəxslərin hüquqlarını müdafiə Komitəsinin evdə təhsil forması ilə bağlı narahatlığını ifadə etməsinə baxmayaraq, Konvensiyaya əsasən götürülmüş öhdəliklər lazımınca yerinə yetirilmir;

- 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramının layihəsinin təqdim olunmasından üç il sonra təsdiqlənməsi və icra prosesində yaranan boşluqlar, hesabatlılığın olmaması ciddi irəliləyişin qət edilməsinə mane olur;

- İnklüziv təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların bütün ölkəni əhatə edən dəqiq məlumat bazası hələ də yoxdur. Belə ki, müxtəlif saytların Təhsil Nazirliyinə istinad edərək yaydıqları məlumatlarda təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların sayı fərqli təqdim olunur.[25] [26]

Təəccüb doğuran məsələlərdən biri də 2014-cü ildə çıxmış məqalədə evdə və xüsusi məktəblərdə təhsil alan uşaqların sayının 2017-ci ilə dair statistika ilə eynilik təşkil etməsidir. [27] [28] Bununla bağlı yaranan suallara aydınlıq gətirilməsi məqsədilə bir sıra dövlət qurumlarına sorğular ünvanlansa da, Bakı və regionlar üzrə ayrılıqda sağlamlıq imkanları məhdud uşaqların sayını öyrənmək mümkün olmadı. Odur ki, həmin məlumatları alternativ vasitələrlə almağa cəhd etdik.

İmişli, Biləsuvar, Gəncə və Şəkidə inklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların və inklüziv təhsil verən məktəblərin sayı haqqında məlumatlara əsasən sadalanan regionlarda rəsmi olaraq bilinən inklüziv məktəb yoxdur, amma adi məktəblərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar var.

Məsələn, **İmişlidə** qeydiyyatda olan 1268 nəfər sağlamlıq imkanı məhdud uşaq var ki, onlardan 617 nəfər 7 yaşından yuxarıdır: həmin uşaqlardan 50 nəfəri Sosial Müdafiə Fondunun dəstəyi ilə fəaliyyət reabilitasiya mərkəzində müvafiq müalicə alırlar.180 uşaq evdə təhsil alır, qalanları ümumtəhsil məktəblərində təhsil alırmış kimi qeydiyyatdadır.Dərsliklər sağlam uşaqların istifadə

[25] https://report.az/elm-ve-tehsil/azerbaycanda-50-mine-yaxin-elil-usaq-tehsilden-kenar-qalib/
[26] http://qaynarinfo.az/az/mektebde-tehsil-ala-bilmeyen-sagirdlerin-en-byuk-problemi/
[27] http://anl.az/down/meqale/express/2014/noyabr/404630.htm
[28] https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inklüzivinklüziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083

etdiyi dərsliklərdir. Rəsmi olaraq İmişlidə inklüziv məktəbin olmaması ona dəlalət edir ki, ya bu uşaqların adı yalandan məktəblərin siyahısına qeyd edilib və uşaqlar məktəbə ümumiyyətlə getmir, ya da uşaqlar onlar üçün xüsusi şərait yaradılmayan məktəblərdə əziyyət çəkirlər. Yəni inklüziv təhsilin psixoloq, sağlamlığı məhdud uşaqlarla işləmək təcrübəsi olan müəllim və müəllim köməkçisi, məktəbin infrastrukturunda dəyişikliklər (pandus, ayaqyolunda, idman zalında) kimi bəzi mühüm şərtləri var ki, təmin olunmalıdır. Regionlarda bəzən qohum-qonşuluq münasibətləri xətrinə sağlamlıq imkanları məhdud uşağa "yaxşılıq" olaraq dərslərdə iştirakına israrlı yanaşılmır.

**Gəncədə** sağlamlıq imkanları məhdud uşaqları olan valideynlərlə əlaqə saxlanıldı. Övladları serebral iflicdən əziyyət çəkən valideynlərin əksər hissəsi evdə təhsildən narazı olduqlarını, müəllimin dərslərə can yandırmadığını qeyd edir, övladlarının normal məktəblərə getməsini arzu edirlər. Lakin yaxınlıqda belə məktəblərin azlığı və ya olmaması övladlarının sosiallaşmasının qarşısını alır. Bununla bağlı BBC-nin hazırladığı reportaj regionlarda sözügedən valideynlərin qarşılaşdığı çətin vəziyyəti izah edir: "Valideyn Tofiq Qasımov oğlu Laiqin təhsil almasına şərait yaradılması üçün bir neçə dövlət orqanına müraciət etsə də, ona deyilib ki, məktəb ancaq Bakıdadır. Buna isə ailənin maddi imkanı yetmir."[29]

Cəbhə xəttinə yaxın olan ərazilərdə **Tərtər və Ağdamda** heç bir uşaq inklüziv təhsilə cəlb olunmamışdır. İnfrastrukturun uyğunsuzluğu və yuxarı siniflərdə sağlamlıq imkanları məhdud uşaqlara tədris edə biləcək mütəxəssislərin olmaması əsas problem hesab edilir. Regionlarda xüsusi təhsil yoxdur deyə valideynlər övladlarını məcburən Bakıya göndərməli olur.

> *"Dövlət Proqramlarının icrası müddətində Bakı, Mingəçevir, Yevlax və Sumqayıtda 30 orta məktəbdə təxminən 300 sağlamlıq imkanları məhdud uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Amma layihə bitən kimi uşaqların sayı 40 nəfərə endi. Şagird tamamilə fərali mühutə öyrəşir və qəflətən layihə bitir və şagird evdə qalmağa məcbur olur. Bu da öz növbəsində uşağın psixologiyasına neqativ təsir edir."* [30]

Təhsilin mümkünlüyü təhsil müəssisələrinin heç bir ayrı-seçkiliyə yol verilmədən hamı üçün iqtisadi və fiziki baxımdan əlçatanlığını əhatə edir. Lakin intervü edilmiş əksər uşaqların valideynləri bütün çatışmazlıqlara və maddi çətinliklərə baxmayaraq uşaqlarının sosiallaşması üçün onları normal məktəblərə aparmaq istədiklərini dəfələrlə müxtəlif ümumtəhsil məktəblərinin direktorlarına bildirsələr də, direktorlar buna şəraitin olmadığını bəyan edərək uşaqları məktəbə qəbul etməmişlər.

*Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Qanunun* 11-ci maddəsinə əsasən, sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial ekspert komissiyasının qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır. Təhsil müəssisəsinin rəhbərliyi sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etməlidir.[31]

Təhsil müəssisəsinin sadəcə mövcudluğu hələ təhsilin keyfiyyətinin göstəricisi deyil. Fiziki mümkünlük prinsipinə görə sağlamlıq imkanları məhdud uşaqlar həm də müasir texnologiyalardan istifadə edərək təhsil almaq imkanına malik olmalıdırlar. Dərs prosesində belə

[29] http://www.bbc.com/azeri/azerbaijan-41676259
[30] http://oc-media.org/children-with-disabilities-are-being-left-behind-in-azerbaijans-frontline-villages/
[31] http://www.e-qanun.az/framework/4353

imkanların yaradılması təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir. Xüsusi məktəblərdə uşaqlar üçün dərslik və avadanlıq baxımından şərait yaradılsa da, övladları inklüziv məktəblərdə oxuyan valideynlər xüsusi dərslik və avadanlıqların olmamasından şikayət edirlər. İnklüziv təhsilin daha bir prinsipi də fərdi inkişaf və təhsil proqramının olmasıdır. İnklüziv təhsil vasitəsi ilə hər bir şəxsin öyrənmə imkanları nəzərə alınmalı və təhsil həmin şəxsin təhsil ehtiyaclarının qarşılanması üçün fərdiləşdirilməlidir. Ölkədə ibtidai, əsas və orta təhsil pulsuz olduğundan sağlamlıq imkanları məhdud uşaqlar üçün də dövlət hesablı müəsssisələrdə təhsil pulsuzdur.

Ümumilikdə isə sağlamlığı məhdud uşaqların sağlamlıq və reabilitasiya xərcləri çox olduğundan və əksər xüsusi, inklüziv təhsil məktəblərində uşaqlar üçün əlavə fəaliyyət növləri, uşaqların daşınması üçün nəqliyyat nəzərdə tutulmadığından (2005-2009 Proqramında xüsusi məktəblərdə nəqliyyat olması nəzərdə tutulmuşdu) iqtisadi baxımdan övladlarının təhsili valideynlər üçün çətinlik yaradır. Bu səbəbdən də valideynlərin əksəriyyəti, əsasən regionda yaşayanlar evdə təhsili çıxış yolu olaraq görür. Bunu Təhsil Nazirliyinin təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların əsas hissəsinin (9355) evdə təhsilə cəlb olunmasından görmək mümkündür. Evdə təhsil Nazirlər Kabinetinin 10 may 2002-ci il tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları”na[32] uyğun həyata keçirilir. Hər bir rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) nəzdində Psixoloji-tibbi-pedaqoji komissiya fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud, xəstəliyi “evdə təhsil almaq hüququ verən xəstəliklər”ə [33] (somatik, nevroloji, cərrahi, dəri, psixonevroloji xəstəliklər) aid olan şagirdlər həmin komissiyanın qərarı ilə evdə təhsilə cəlb olunurlar. Sözügedən qaydalara görə, sağlamlıq imkanları məhdud olan uşaqlar evdə təhsil məktəbinə, yaxud şagirdin yaşadığı ərazidəki ümumtəhsil məktəbində evdə təhsil ala bilər.

Təşkil etdiyimiz sorğuda iştirak edən valideynlərin 72%-i inklüziv təhsil verən məktəblərdə xüsusi dərsliklərin olmamasından şikayətlənir, dərsliklərin və proqramın uşaqları üçün ağır olduğunu vurğulayırlar və inklüziv təhsil alan uşaqların qiymətləndirilməsi üçün hər hansı xüsusi metodların olmadığını bildirir. Təhsil Nazirliyinə bu barədə ünvanladığımız sorğuya belə cavab verilib.

> *“Sağlamlıq imkanları məhdud uşaqların fərdi təhsil planlarının hazırlanması üçün yuxarıda adları qeyd olunan beynəlxalq təcrübədə tətbiq olunan yeni qiymətləndirmə alətləri (metodikaları) YUNİSEF tərəfindən alınmış, testlər Azərbaycan dilinə tərcümə edilmiş və tətbiqinə başlanılmışdır. Məsələyə kompleks yanaşma məqsədilə xüsusi təhsil üzrə müəllim hazırlığının təkmilləşdirilməsi ilə bağlı islahatlara da başlanılmışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetində korreksiyaedici təlim üzrə yeni kafedra yaradılmışdır”.*[34]

Məlumatların doğruluğu aidiyyatı qurumlar tərəfindən təsdiqlənib. Valideynlərin əsas hissəsinin yeni qiymətləndirmə metodları haqqında məlumatlı olmaması maarifləndirmə prosesinin zəif təşkilinin göstəricisi olaraq dəyərləndirilə bilər.

Pedaqoji kadr çatışmazlığı inklüziv təhsilin həlli məsələsində ən mühüm problemlərdən biridir. Bununla belə sorğuda iştirak edən bütün valideynlər övladlarının müəllimlərindən razı olduqlarını, uşaqlarında ilk məktəbə başladığı vaxtlarla müqayisədə xeyli dəyişiklik olduğunu

[32] https://www.dropbox.com/sh/kytjs0975diqqpm/AAA5cytVwkjwVRUbuze7yFZTa?dl=0
[33] http://www.e-qanun.az/framework/1724
[34] https://www.dropbox.com/sh/kytjs0975diqqpm/AAA5cytVwkjwVRUbuze7yFZTa?dl=0

bəyan edirlər. Valideynlər yekdilliklə sosiallaşmanın tərəfdarıdır, şəraitsiz olsa da, ümumtəhsil məktəblərində sağlam uşaqlarla təhsil almanın uşaqlarına pozitiv təsir etdiyini bildirirlər. Uşaqlarının sinif yoldaşları arasından dostlarının olması övladlarına emosional baxımdan müsbət təsir edir.

Dünya ölkələrinin inklüziv təhsil sahəsində təcrübələri ölkəmiz tərəfindən öyrənilməli və tez zamanda tətbiq edilməlidir. Sağlamlığı məhdud uşaqların təhsili dünya təhsil standartlarına uyğun həyata keçirilməli, təhsil hüququ pozulan digər uşaqların təhsil hüququ məhz dövlət tərəfindən bərpa edilməlidir.

Təəssüf doğuran məsələdir ki, Azərbaycan qanunvericiliyində hələ də "əqli qüsur" ifadəsi işlənir, əlilliyi olan uşaqların yalnız tibbi ehtiyaclarının qarşılanmasına dair müddəalar vardır. Tibbi model isə insanın nəyə ehtiyacı olduğuna deyil, ona nə olduğuna fokuslanır. Belə yanaşma aşağı gözləntilər yaradır və insanlar seçim və həyatlarını kontrol müstəqilliyini itirirlər. Ənənəvi tibbi model tərəfindən əlil insanların şəxsi əlillik təcrübəsi izah edilmədiyi və birgə yaşayış yollarının inkişafına kömək etmədiyindən sağlamlıq imkanları məhdud şəxslər dünyada əlilliyin sosial modelini inkişaf etdirdilər. Sosial modelə görə əlillik insanın fərqliliyinə görə deyil, cəmiyyətin bu fəqrliliyi qabardacaq tərzdə uyğunsuz təşkili nəticəsində meydana gəlir. Belə yanaşma sağlamlıq imkanları məhdud insanların həyat seçimlərini məhdudlaşdıran məsələlərin aradan qaldırılması yollarını axtarırır. Məhdudiyyətlər təkcə fiziki deyil. Cəmiyyətdə qarşılaşdıqları münasibətlər ümumilikdə qərəz və stereotiplərə əsaslanır və onların cəmiyyətdə bərabər imkanlara malik olmasını əngəlləyir. Məhdudiyyətlər aradan qaldırılarsa, əlil insanlar öz həyatlarında seçim və idarəetmə imkanları ilə cəmiyyətdə müstəqil və bərabər olar.

## 4. NƏTİCƏ

Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı ilk narahatlıq doğuran məqam qanunvericilik bazasının yetərsizliyidir. Doğrudur, hesabatda qeyd edildiyi kimi inklüziv təhsillə bağlı bir sıra müddəalar qanunlarda öz əksini tapsa da, bütövlükdə inklüziv təhsillə bağlı qanunun olmaması dövlətin bu sahəyə kompleks baxışının olmamasının sübutudur.

2005-2009-cu il İnkşaf Proqramında qarşıya qoyulmuş ən önəmli məqsədlərdən biri olan sağlamlıq imkanları məhdud uşaqlarla bağlı vahid bazanın yaradılması təəssüf ki, yerinə yetirilməyib. Dünya praktikasında sağlamlıq imkanları məhdud uşaqların sağlamlıq problemləri erkən aşkar edilir, onlarla davamlı əlaqə saxlanılır. Daha sonra məktəb dövründə hər bir uşağın öz probleminə uyğun məktəbdə təhsil alması təmin edilir. Bu isə uşaqların öz bilik və bacarıqlarını daha yaxşı inkşaf etdirməyə şərait yaradır.

Azərbaycanda isə inklüziv təhsil bir tərəfə, sağlamlıq imkanları məhdud uşaqlarla bağlı məktəbəqədər dövrdə görülən işlər çox azdır. Bu isə sonrakı dövrdə dövlət orqanlarının sağlamlıq imkanları məhdud uşaqları təsnifatlaşdırmasının qarşısını alır. İnklüziv təhsil ölkəmiz üçün yeni bir anlayış olduğundan bununla bağlı istər dövlət orqanlarında, istərsə də cəmiyyətdə müxtəlif anlaşılmazlıqlar yaranır. Bır sıra hallarda valideynlər öz uşaqlarının inklüziv təhsilə cəlb olunan uşaqlarla bir yerdə təhsil almasının əleyhinə olurlar.

Digər tərəfdən, inklüziv təhsilə cəlb olunan uşaqların valideynləri öz uşaqlarının sağlam uşaqlarla bir yerdə təhsil almasından çəkinirlər və uşaqlarının yetərsizliyindən utandıqlarını qeyd

edirlər. Bütün bunların səbəbinin isə dövlətin bu sahədə maarifləndirmə fəaliyyətinin olmamasıdır. Televiziyalarda, radiolarda, mətbuatda inklüziv təhsillə bağlı hansısa sosial çarxlara, xəbərlərə, məlumatlara çox nadirən rast gəlinir.

Cəmiyyətdə inklüziv təhsillə bağlı yetərli məlumat olmadığından bu sahədə kadrların yetişdirilməsi prosessi də xeyli ləngiyir. Çünki, məlumdur ki, ölkəmizdə abituriyentlərin əksər hissəsi öz valideynlərinin və ətrafının yönləndirilməsi ilə öz ixtisasını seçir. Belə olan halda valideynlər tərəfindən, umumiyyətlə cəmiyyət tərəfindən bilinməyən bir ixtisasa abituriyent yiyələnmək istəsə belə dəstək çox az olacaqdır. Bu səbəbdən dövlət bu tip sahələri prioritet sahə elan edib əlavə təşviq, təqaüd təklif etməklə abituriyentlərin marağını cəlb edə bilər.

Regionlarda inklüziv təhsil üçün yararlı məktəbəqədər və ümumtəhsil müəssisələri azdır, elə hissələr var ümumiyyətlə yoxdur. Belə olan halda məcburi şəkildə evdə təhsilə üstünlük verməli olurlar. Evdə təhsil sahəsinə də xüsusi nəzarət olmadığından onun həyata keçirilməsində də keyfiyyət məsələsi şübhə doğurur.

Bütün bunları ümumiləşdirsək, dövlətin inklüziv təhsilə yanaşmasının qeyri-şəffaf olduğu, cəmiyyətin yetəri qədər məlumatlandırılmadığı, kifayət qədər kadrların, dərsliklərin hazırlanmadığı, qanunvericilik və məlumat bazası kimi ən mühüm sahələrin hələ də formalaşmadığı hesabatda detallı şəkildə izah edilir.

## 5. TÖVSİYƏLƏR

İnklüziv təhsil sahəsində durumun ölkə qanunvericiliyi və beynəlxalq standartlara uyğun səviyyədə təşkili üçün aşağıdakı işlərin görülməsini vacib sayırıq:

1. İnklüziv təhsil üzrə qanunvericilik, əlilliyin sosial modelini təsbit edən hüquqi baza yaradılmalı və intensiv fəaliyyət planı hazırlanmalıdır.

2. Təhsilə cəlb olunmuş və təhsildən kənarda qalan sağlamlıq imkanları məhdud uşaqları müəyyən edə bilmək üçün vahid məlumat bazası yaradılmalı, onların sağlamlıq və reabilitasiya, təhsil inkişafı müvafiq qaydada izlənilməli, zaman keçdikcə proqramın uşağa uyğun olmadığı müəyyən edilərsə, müdaxilə edilməlidir.

3. Ölkə ərazisində regionlar da daxil olmaqla rayonlar üzrə sağlamlıq imkanları məhdud uşaqların sayı nəzərə alınmaqla inklüziv məktəbəqədər tərbiyə müəssisələri və məktəblər müəyyən edilməli və həmin bağça və məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi şərait yaradılmalıdır(panduslarn qoyulması, ayaqyolunda və idman zalında müvafiq dəyişikliklər edilməsi). Həmin inklüziv bağça və məktəblər haqqında məlumatlar ictimaiyyətə açıq olmalıdır.

4. Maddi çətinlikləri olan valideynlərin uşaqlarını məktəbə aparıb-gətirmək üçün inklüziv məktəblərə nəqliyyat vasitəsi təyin olunmalıdır.

5. Uşaqlarda əlilliyin qarşısının alınması üçün pulsuz erkən müdaxilə proqramları həyata keçirilməlidir.

6. Sağlamlıq imkanları məhdud uşaqlar üçün dərsdənkənar fəaliyyət növlərini əhatə edən dövlət hesablı mərkəzlərin sayı artırılmalıdır.

7. Sağlamlıq imkanları məhdud inklüziv təhsil alan uşaqlar üçün xüsusi proqram, dərslik, qiymətləndirmə metodları müəyyən edilməlidir.

8. İnklüziv təhsil ölkəmizdə illərdir hələ də təhsilin ibtidai pilləsini əhatə etdiyi üçün, əsas təhsil pilləsinə keçməli olan sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı layihələr və proqramlar həyata keçirilməlidir.

9. Sağlamlıq imkanları məhdud uşaqların yuxarı təhsil pillələrində inklüziv təhsilə cəlb edilməsi ilə bağlı tədbirlər planı hazırlanmalıdır.

10. Sağlamlıq imkanları məhdud uşaqlarla işləyə bilən yetərli sayda kadr hazırlanmalı, artıq onlarla işləyən müəllimlər əlavə ixtisasartırma kurslarına cəlb olunmalı və onların maddi cəhətdən həvəsləndirilməsi məsələsi nəzərə alınmalıdır.

11. İnklüziv təhsilə cəlb edilən xarici qrantların qeydiyyatsız (sadəcə məlumatlandırmaqla) fəaliyyətinə icazə verilməsi bu sahənin daha intensiv inkişafına kömək edər.

12. İctimaiyyəti inklüziv təhsil barədə məlumatlandırmaq üçün ictimai vəkillik kampaniyaları, valideynlərin inklüziv təhsil, proqram və qiymətləndirmə metodları haqqında maariflənməsi üçün təlimlər keçirilməlidir.

## MƏNBƏLƏR

1. Situation Assessment: People with disabilities in Azerbaijan (By Ms.Chantelle McCabe, International Consultant to Unicef Azerbaijan, 2011)
2. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər (İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), Bakı, 2016)
3. Equal right, equal opportunity – İnclusive Education For Children with Disabilities (Handicap International)
4. Azərbaycanda Sağlamlıq İmkanları Məhdud olan Uşaqlara Təhsil xidmətlərinin Göstərilməsi haqqında Tədqiqat (Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi)
5. Children with disabilities – Inclusive Education Project. Second Year Evaluation Report. 2006, Centre for Innovation in Education. Eyyub Hajiyev, MSK)
6. Azərbaycan Respublikasının Təhsil Qanunu (2009)
7. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (2001)
8. BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dair Azərbaycan ilk hesabatı Respublikasının Yanvar, 2011-ci il
9. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya (BMT, 2006)
10. Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu (2012)
11. Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respubliksaı Nazirlər Kabinetinin Qərarı (2002)
12. İnternet resurslar
http://www.icevi-europe.org/topics/baku2011articles.pdf
http://www.e-qanun.az/framework/1528
http://www.e-qanun.az/framework/1733
http://www.e-qanun.az/framework/5907

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***

**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.id-aze.org

E- poçt: demti.info@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI